“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 3 (22) ✦ 31 mart 2026-cı il

## Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının 33-cü ildönümü qeyd olunub






Bu gün Yeni Azərbaycan Partiyası (YAP) Balakən rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, YAP rayon təşkilatının sədri Azad Balayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər, partiya fəalları, gənc və veteran üzvlər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məruzə ilə çıxış edən YAP Balakən rayon təşkilatının sədri Azad Balayev partiyanın yaranma zərurətindən, keçdiyi mühüm tarixi mərhələlərdən, rayon təşkilatının fəaliyyəti və qazandığı uğurlardan geniş bəhs edib. O, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsindən və bu siyasətin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən danışıb.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev çıxış edərək Yeni Azərbaycan Partiyasının rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə partiya üzvlərini və fəallarını təbrik edib. O, Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycanın siyasi həyatında müstəsna rolundan, dövlətçilik ənənələrinin möhkəmləndirilməsindəki xidmətlərindən söz açıb. Rayon rəhbəri bildirib ki, partiyanın təsisçisi Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt bu gün İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizin inkişafı və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində mühüm rol oynamaqda davam edəcəkdir.

Tədbirdə həmçinin Balakən rayonu üzrə gənclər və idman sektorunun məsləhətçisi Nurlan Şibliyev, Nizami adına şəhər 1 saylı tam orta ümumtəhsil məktəbinin müəllimi Leyla Hacıyeva, R.Səmədov adına şəhər 2 saylı körpələr evi-uşaq bağçasının müdiri Züleyxa Dibirova, Vətən müharibəsinin iştirakçısı Osman Əliyev və partiya veteranı Ruqiyyə Seyidova çıxış edərək YAP-ın keçdiyi şərəfli yoldan, ölkəmizin ictimai-siyasi həyatındakı rolundan və əldə olunan nailiyyətlərdən danışıblar.

Sonda partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib, partiyanın fəaliyyətində xüsusi xidmətləri olan veteran üzvlər qiymətli hədiyyələrlə təltif olunublar.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

**Yeni Balakən**

## İnternat tipli gimnaziyada tanışlıq: problemlər və həll yolları gündəmdə





Balakən rayon rəhbəri Natiq Ağayev hüquq mühafizə orqanlarının rəhbərləri və təhsil sektorunun əməkdaşları ilə birgə İnteqrasiya Təlimli İnternat tipli Gimnaziyada olub. Tanışlıq xarakterli səfərdə gimnaziyanın ümumi vəziyyəti ilə yaxından maraqlanılıb, sinif otaqları, yataqxana, dərs prosesi və şagirdlərin istirahət şəraiti yerindəcə izlənilib.

Gimnaziya rəhbərliyi tərəfindən bir sıra çatışmazlıqlar səsləndirilib, təmirə ehtiyacı olan sahələr göstərilib. Ümumilikdə məktəbin əsaslı təmirə ehtiyacı olduğu vurğulanıb. Natiq müəllim məsələ ilə bağlı Təhsil Nazirliyi ilə əlaqə saxlayacağını, əgər proses uzanarsa, rayonda xeyirxah işlər görmək istəyən iş adamlarını bu işə cəlb edəcəyini bildirib. Bu, həm dövlət, həm də ictimai dəstəyin birgə gücünü göstərən mühüm mesaj idi.

### Təhsil və gigiyena: uşaqların gündəlik həyatına təsir edən problemlər

Səfər zamanı mətbəx və anbarlarda da şəraitə baxış keçirilib. Yeməklərin hazırlanması, günün menyusu, ərzaqların saxlanılması diqqətlə izlənib. Təəssüf ki, hər şey ideal deyildi. Gigiyenik vəziyyətin zəifliyi, sanitar qovşaqlarda bərk sabun və dəsmalın olmaması, su kranlarının işləməməsi, kağız dəsmalların gec və az verilməsi kimi problemlər açıq şəkildə görünürdü. Ən əsası, qaydalara görə maye sabun istifadəsi zəruri olsa da, həftələrlə təmin olunmadığı müşahidə edildi. Bu çatışmazlıqlar uşaqların gündəlik həyatına birbaşa təsir göstərir, onların sağlamlığını və psixoloji rahatlığını risk altına qoyur.

### Rəhbərliyin mövqeyi və dərhal verilən tapşırıqlar

Rayon rəhbəri dərhal təhsil sektorunun məsul şəxslərinə tapşırıq verərək, problemlərin aradan qaldırılması üçün tədbirlərin görülməsini tələb etdi. O, çətinliklər yarandığı halda icra hakimiyyətinə məlumat verilməsini və şəxsən Nazirliklə danışacağını da qeyd etdi. Bu, məsuliyyətin yalnız bir qurumun üzərinə düşmədiyini, həm yerli, həm də mərkəzi səviyyədə koordinasiyanın vacibliyini göstərirdi.

### İctimai dəstək nümunəsi

Maraqlı məqam isə rayon polis şöbəsinin rəisi Çingiz Aslanovun mövqeyi oldu. O, gigiyenik vəziyyətin acınacaqlı olduğunu görərək biganə qalmadı və öz hesabına məktəbə 50 litr maye sabun (təxminən bir aylıq tələbat) hədiyyə etdi. Bu addım həm şagirdlərin sağlamlığına, həm də ümumi şəraitin yaxşılaşdırılmasına mühüm töhfə verdi. Belə nümunələr göstərir ki, təhsil müəssisələrinin problemlərinin həllində yalnız dövlət qurumları deyil, ictimaiyyətin də rolu böyükdür.

### Nəticə: uşaqların gələcəyi üçün birgə məsuliyyət

İnternat tipli gimnaziyada səsləndirilən problemlər təkcə bir məktəbin deyil, bütövlükdə ölkə təhsil sisteminin qarşısında duran çətinliklərin göstəricisidir. Regionlarda təhsil müəssisələrinin vəziyyəti, onların maddi-texniki bazası, gigiyenik şəraiti birbaşa uşaqların gələcəyinə təsir edir. Bu səbəbdən hər bir qurum, hər bir vətəndaş öz imkanları daxilində bu sahəyə dəstək verməli, uşaqların sağlam və rahat mühitdə təhsil almasına töhfə verməlidir. Bu səfər bir daha göstərdi ki, təhsil müəssisələrinin problemlərinin həlli yalnız dövlətin deyil, bütün cəmiyyətin üzərinə düşən bir vəzifədir. Uşaqların sağlam, rahat və ümidli gələcəyi üçün hər birimizin kiçik də olsa töhfəsi böyük dəyişiklik yarada bilər.

**Ramazan Abal**

## Balakəndə 31 Mart soyqırımı qurbanlarının xatirəsi anılıb

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Balakən şəhərində anım tədbiri keçirilib. Anım tədbirində Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak edib.





Çıxışlarda bildirilib ki, xalqımıza qarşı 1918-ci ildə törədilmiş soyqırımından 108 il ötür. Həmin vaxt erməni daşnakları Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə azərbaycanlı əhaliyə qarşı vəhşiliklər törədərək on minlərlə günahsız, dinc sakini milli mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetiriblər. Ulu Öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Qeyd edilib ki, ermənilərin xalqımıza qarşı törətdiyi cinayətlərin cavabı 2020-ci ilin 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri zamanı verildi. Azərbaycan Ordusu işğala son qoyaraq ölkənin ərazi bütövlüyünü, suverenliyini tam bərpa etdi, 31 Mart soyqırımları və ondan sonra da azərbaycanlılara qarşı törədilən cinayətlərin qisası alındı.

Bu gün hər bir azərbaycanlı 31 Mart soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edir. Həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır.

Daha sonra tədbir iştirakçıları soyqırım qurbanlarının əziz xatirəsinə ucaldılmış Xatirə Kompleksinin önünə gül-çiçək dəstələri düzüb, “Soyqırım bağı” ərazisində ağac əkiblər.

**Yeni Balakən**

# Balakəndə Novruz Bayramı Təntənə ilə Qeyd Olundu














## Baharın gəlişi böyük coşqu ilə qarşılandı

Əcdadlarımızdan bizə yadigar qalan, milli ruhumuzu, yaddaşımızı və qədim adət-ənənələrimizi özündə yaşadan Novruz bayramı Balakəndə böyük coşqu ilə qeyd olunub. Martın 19-da Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ümumrayon şənliyi keçirilib. Park səmənilər, gül-çiçəklər, al-əlvan xonçalar və xalq tətbiqi sənəti nümunələri ilə bayramsayağı bəzədilib.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, rayon rəhbərləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə və müəssisələrin kollektivləri, şəhid ailələri, qazilər və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Qonaqlar Bahar qız, kosa və keçəl, milli geyimli gənclərin təqdim etdiyi Novruz xonçaları və şərbətlə qarşılanıb. “Yallı” rəqsi bayramın ruhunu daha da canlandırıb. İcra başçısı Natiq Ağayev musiqi sədaları altında bayram tonqalını alovlandıraraq şənliyi rəsmi şəkildə açıq elan edib.

## Sərgilər və bayram guşələri

Bayram çərçivəsində sahibkarların və məktəblilərin əl işlərindən ibarət satış sərgisi təşkil olunub. Tarix-diyarşünaslıq muzeyinin eksponatları, qədim məişət əşyaları, rəsm sərgiləri və milli mətbəximizin nümunələri qonaqların böyük marağına səbəb olub. İdmançılar öz məharətlərini nümayiş etdiriblər.

## Təbriklər və mükafatlandırma

Rayon rəhbəri Natiq Ağayev Novruz bayramının dövlət səviyyəsində qeyd olunmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. O, həmçinin Balakən gimnaziyasının təmirinə dəstək verən iş adamı Qalib Əhmədovu təltif edib və region məktəblilərinin velosiped turnirində qalib gəlmiş idmançıları mükafatlandırıb.

## Rəngarəng konsert və personajların çıxışı

Dədə Qorqud və Bahar qızı mərasim iştirakçılarını salamlayaraq xoş arzularını çatdırıblar. Mədəniyyət Mərkəzinin musiqi və rəqs kollektivləri bayram konserti ilə çıxış edib. Kosa və Keçəl məzəli zarafatları ilə tədbirə şənlik qatıb, iştirakçılarda unudulmaz təəssürat yaradıb.

Şənlik park ərazisində ağacəkmə aksiyası ilə başa çatıb. Bu addım Novruzun təbiətə sevgi və yenilənmə fəlsəfəsini bir daha təsdiqləyib.

**Yeni Balakən**

# Balakəndə Ramazan Bayramı: Birlik, sevinc və mənəvi ucalıq



Ramazan ayını geridə qoyan Balakən camaatı bu gün böyük coşqu ilə Ramazan bayramını qarşıladı. Səhərin erkən saatlarından etibarən məscidlərə üz tutan insanlar bayram namazını qılmaq üçün bir araya gəldilər. Məscidlərdəki mənzərə həm dini, həm də ictimai baxımdan dərin məna daşıyırdı: müxtəlif yaş qruplarından olan insanlar bir səfdə dayanaraq dua etdilər, bayramın mənəvi ucalığını birlikdə yaşadılar.

Namazdan sonra bayramlaşma mərasimi başladı. İnsanlar bir-birini təbrik edir, qucaqlaşır, sevincini bölüşürdü. Bu bayram sadəcə dini bir mərasim deyil, həm də sosial bir hadisədir: qohumlar, qonşular, dostlar bir araya gələrək həmrəyliyin, paylaşmanın və mərhəmətin təcəssümünü ortaya qoyurlar. Balakəndəki bayram ab-havası bir daha göstərdi ki, Ramazan ayı insanları birləşdirən, qəlbləri saflaşdıran və cəmiyyətə mənəvi güc verən bir məktəbdir.

Bayram günlərində həm də ehtiyacı olanlara yardım etmək, kasıbları sevindirmək, uşaqlara bayram hədiyyələri vermək ənənəsi yaşadılır. Bu, bayramın ruhunu daha da zənginləşdirir və onun sosial ədalət, paylaşma və mərhəmət prinsiplərini ön plana çıxarır.

Bayram təbriki

Ramazan bayramı münasibətilə bütün oxucularımızı ürəkdən təbrik edirik! Bu mübarək günlər hər bir evə bolluq, bərəkət, sevinc və sülh gətirsin. Qəlblərimizdə mərhəmət, dilimizdə dua, əllərimizdə paylaşma olsun. Bayramınız mübarək!

**Yeni Balakən**



# BALAKƏNDƏ 8 MART - BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ HƏSR OLUNMUŞ BAYRAM TƏDBİRİ KEÇİRİLİB









Bu gün Balakən Rayon Mədəniyyət Mərkəzində 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, aparatın əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid anaları və xanımları, övladları, həmçinin rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınlar iştirak ediblər. Şəhid ailəsinin üzvlərinə rayon icra hakimiyyəti tərəfindən bayram hədiyyələri təqdim olunub.

Tədbirdə əvvəlcə Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev çıxış edərək ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyevin qadın şəxsiyyətinə böyük hörmətlə yanaşmasından, onun siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yerinin və nüfuzunun daha da artmasından bəhs edib. Bildirilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır. Mehriban xanım Əliyevanın simasında dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Rayon rəhbəri qadınları 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, hər birinə cansağlığı, ailə səadəti və işlərində müvəffəqiyyətlər arzulayıb.

Daha sonra rayonun ictimai-siyasi həyatında fərqlənən qadınlar Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları ilə təltif olunub.

Həmçinin tədbirdə şəhid anası Gülşən Kərimova və şəhid atası Şəmsəddin Tuhumov çıxış edərək qadınların cəmiyyət həyatında, milli-mənəvi dəyərlərin qorunmasında və sağlam ailə institutunun formalaşmasında mühüm rol oynadıqlarını qeyd ediblər. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbir Balakən Rayon Mədəniyyət Mərkəzinin hazırladığı konsert proqramı ilə davam etdirilib.

* * *

Eyni zamanda rayon rəhbəri Natiq Ağayev rayon icra hakimiyyətində çalışan xanım əməkdaşları təbrik edib, fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

**Yeni Balakən**

# "Balakən Uşaq İncəsənət Məktəbində Baharın İlk Nəğməsi" Torpaq Çərşənbəsi Balakəndə İncəsənət Bayramına Çevrildi









17 mart 2026-cı il tarixində Balakən Uşaq İncəsənət Məktəbi baharın gəlişini, torpağın oyandığı ilaxır – "Torpaq çərşənbəsi"ni xüsusi bir tədbirlə qeyd etdi. Bu məkanda keçirilən hər bir tədbir özəl və gözəl görünüm alır, ən kiçik məqam belə böyük təəssürat yaradır.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı cənab Natiq Ağayev, dövlət hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid anaları, mədəniyyət işçiləri, valideynlər və digər qonaqlar iştirak etdilər. Onların iştirakı tədbirə həm rəsmi, həm də mənəvi dəyər qatdı.

## İNCƏSƏNƏTLƏ QARŞILAMA

Girişdə qonaqları məktəbin rəqs qrupunun şagirdləri milli "Yallı" rəqsi ilə qarşıladı. Bu qədim rəqs həm birlik, həm də milli ruhun təcəssümü kimi tədbirin başlanğıcına xüsusi rəng qatdı. Ardınca gənc rəssamların canlı yaradıcılıq prosesi və sərgilənən əsərləri təqdim olundu. Qonaqlar uşaqların fırçasından doğan bayram ovqatını, milli motivləri və yaradıcılıq həvəsini böyük maraqla izlədilər.

Xatırladaq ki, Balakən Uşaq İncəsənət Məktəbi 2020-ci ildə cənab Prezidentin iştirakı ilə açılmış, respublikada nadir layihələrdən biridir. Məktəbin özünə məxsus səs yazma studiyası, məşhur tar ustası Aydın Tağıyevin emalatxanası və zəngin yaradıcılıq mühiti tədbir iştirakçıları üçün xüsusi maraq doğurdu. Bu imkanlar Balakən gənclərinin incəsənətə olan marağını daha da artırır.

Tədbirin əsas hissəsi böyük zalda baş tutdu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndi, şəhidlərimizin ruhu ehtiramla yad edildi. Ardınca uşaq xor kollektivinin, xalq çalğı alətləri ansamblının və müəllimlərin ifasında milli musiqi nümunələri səsləndi. Rəqs kollektivlərinin çıxışları isə zalda bayram ovqatını daha da gücləndirdi. Hər ifa, hər rəqs tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

## BAYRAMIN SON NƏĞMƏSİ

Tədbirin sonunda rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev tədbir iştirakçılarını bayram münasibətilə təbrik edərək belə gözəl tədbirlərin davamını tövsiyyə etdi. O, məktəb kollektivi ilə birgə xatirə şəkli çəkdirərək bu günün yaddaşlarda qalacaq bir bayram səhifəsinə çevrilməsinə töhfə verdi.

**Ramazan Abal**



# "Bayram sevincini seçiciləri ilə paylaşdı"

Millət vəkili Nəsib Məhəməliyev seçiciləri ilə bayramı qeyd etdi

Balakən rayonunda bayram ab-havası seçicilərlə birgə yaşandı. Hörmətli millət vəkili Nəsib Məhəməliyev bu gün hər iki bayram münasibətilə balakənliləri səmimi şəkildə təbrik edərək, onların sevincini bölüşdü.

Şambul kəndində keçirilən görüşdə millət vəkili seçicilərlə bir araya gələrək onların gündəlik həyatla bağlı problemlərini dinlədi. Vətəndaşların qaldırdığı məsələlərdən dərhal həll olunması mümkün olanlar yerindəcə həll edildi. Zaman tələb edən və aidiyyatı qurumların müdaxiləsini tələb edən problemlərin isə mütləq şəkildə müvafiq instansiyalar qarşısında qaldırılacağına söz verdi.

Görüş zamanı sakinlər millət vəkilinin diqqət və qayğısını yüksək qiymətləndirərək, onların yanında olmasından məmnunluqlarını ifadə etdilər. Bayram günündə seçicilərlə birgə olmaq, onların sevincini paylaşmaq və eyni zamanda problemlərinə həll yolları tapmaq millət vəkili ilə xalq arasında səmimi ünsiyyətin bariz nümunəsi oldu.

**Yeni Balakən**

# Bədən Tərbiyəsi və İdman Günü münasibətilə keçirilən Balakən məktəblilərinin Spartakiadasının açılışı olub





Olimpiya İdman Kompleksində keçirilən tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının rəhbərliyi, icra aparatının əməkdaşları, dövlət orqanlarının yerli idarə və xidmət sahələrinin rəhbərləri, idmançılar və rayon ictimaiyyəti iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Balakən Atçılıq və Velosiped İdmanı Klubunun üzvlərinin nümunəvi keçidi baş tutub.

Balakən rayonu üzrə gənclər və idman sektorunun müdiri vəzifəsini müvəqqəti icra edən Sarxan Hacıyev çıxış edərək dövlətin idmana olan qayğısı, bədən tərbiyəsinin inkişafı və gənclərin idmana cəlb olunması istiqamətində görülən tədbirlərdən danışıb, idmançılara gələcək yarışlarda uğurlar arzulayıb.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev idmançıları və idmansevərləri 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə təbrik edərək bildirib ki, Azərbaycanın idman sahəsində qazandığı uğurlar ölkəmizin beynəlxalq arenada nüfuzunun göstəricisidir. Dünya miqyasında idman ölkəsi kimi tanınan Azərbaycanın qazandığı yüksək nəticələrin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün də Prezident, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra Spartakiadanın proqramına daxil olan sərbəst güləş, mini futbol, atletika və voleybol yarışlarına start verilib.

**Yeni Balakən**

# “R.Səmədov adına bağçada 8 Martın sevinc dolu anları”



**Balakənin İncisi – R.Səmədov adına şəhər 2 nömrəli körpələr evi– uşaq bağçası**

Balakənin mədəni həyatında özünəməxsus yeri olan R.Səmədov adına şəhər 2 nömrəli körpələr evi–uşaq bağçası illərdir ki, rayonumuzun ən böyük və nümunəvi məktəbəqədər müəssisəsi kimi fəaliyyət göstərir. 1984-cü ildən qapılarını balaca fidanlara açan bu bağça, I Qarabağ müharibəsinin qəhrəman şəhid müəllimi Rafiq Səmədovun adını daşımaqla həm tarixi yaddaşımızı yaşadır, həm də gələcək nəsillərə vətənpərvərlik ruhunu aşılayır.

2014-cü ildən etibarən bağçaya YAP Balakən rayon Təşkilatı Qadınlar Şurasının sədri Züleyxa Cavad qızı Dibirova rəhbərlik edir. Onun gərgin zəhməti, incə düşüncəsi və böyük hədəflərə ağılla yönələn idarəçilik bacarığı sayəsində müəssisə inkişaf edir.Dövlətin dəstəyi,Elm və Təhsil Nazirliyinin xətti ilə bağça 2025-ci ildə əsaslı təmir olunmuş, uşaqların hərtərəfli inkişafı üçün müasir şərait yaradılmışdır.Rayon Təhsil Sektorunun müdiri Mehparə Mirzəyevanın diqqət və qayğısı,müəssisənin problemləri ilə yaxından maraqlanması ümumi işin keyfiyyətinə müsbət təsir edir.

**Bağçanın fəaliyyət istiqamətləri genişdir:**

* uşaqların əqli, fiziki və yaradıcı potensialının inkişafı,
*sosial–emosional bacarıqlarının möhkəmləndirilməsi,
*estetik tərbiyə və əmək vərdişlərinin formalaşdırılması,
*sağlam həyat tərzinə həssas münasibətin aşılanması,
*milli-mənəvi dəyərlərə, ana dilimizə və dövlətçiliyimizə bağlılığın gücləndirilməsi.

Burada hər bir uşaq yalnız biliklə deyil, həm də sevgi ilə böyüyür. Müəssisənin pedaqoji kollektivi balacaların istedadını üzə çıxarmağa, onları cəmiyyət üçün sağlam və faydalı fərdlər kimi yetişdirməyə çalışır.

**8 Mart – Analara Həsr Olunan Bayram**

Bu gün bağçada “8 Mart Beynəlxalq Qadınlar Günü” münasibətilə möhtəşəm tədbir keçirildi. Tədbirin iştirakçıları bağçanın kollektivi, balaca fidanlar və onların anaları idi.

**Balacalar analarına bayram konserti təqdim etdilər:**

*hər biri analarına təbii çiçək hədiyyə etdi,
*şeirlər söylədilər, mahnılar oxudular,
*rəqslər ifa etdilər, oyunlar oynadılar.

Bu anlarda anaların sevinc dolu baxışları, qürurla parlayan göz yaşları salonda xüsusi bir ab-hava yaratdı. Çünki övladın valideynə bəxş etdiyi duyğu, yaşatdığı hisslər bənzərsizdir.

Tədbirin gözəl və uğurla keçirilməsində bağçanın müəllim və tərbiyəçilərinin zəhməti danılmazdır. Onların fədakar işi, uşaqlara göstərdikləri qayğı və sevgi, rəhbər Züleyxa xanımın uzaqgörən idarəçiliyi ilə birləşərək bu günün bayram ovqatını daha da möhtəşəm etdi.

R.Səmədov adına şəhər 2 nömrəli körpələr evi–uşaq bağçası Balakənin təkcə ən böyük məktəbəqədər müəssisəsi deyil, həm də gələcəyimizin təməlini qoyan bir mədəniyyət ocağıdır. Burada böyüyən hər bir uşaq milli dəyərlərə bağlı, sağlam düşüncəli və yaradıcı bir fərd kimi formalaşır. Bu isə həm rayonumuz, həm də bütövlükdə ölkəmiz üçün böyük qürur mənbəyidir.

**Ramazan Abal**

# Şəhid Valideynlərinin Görüşü: Birliyin və Zəfərin Ən Müqəddəs Səhifəsi







Müharibələr acı, kədər və itki deməkdir. Bu acılara dözmək üçün gərək zəfər qazanılsın, qələbə çalınsın. II Qarabağ Müharibəsi Azərbaycan tarixində məhz belə bir dönüş nöqtəsi oldu. Şəhidlərimizin, qazilərimizin, igid döyüşçülərimizin qızıl qanı və şirin canı ilə yazılan bu səhifə xalqımıza torpaqlarını, kimliyini, dəyərlərini və birliyini qaytardı. Amma bu zəfəri bizə bəxş edən oğullar geri dönmədilər. Onları unudulmaz edən isə əbədi olaraq bizə qaytardıqları milli birliyimizdir.

Bu birliyi bu gün ən yüksək səviyyədə yaşadanlar şəhid valideynləridir. Onların səbir və fədakarlığı, övladlarının yolunu gözləyən gözləri, ürəklərində daşıdıqları dərd, xalqımızın gücünü və birliyini daha da möhkəmləndirir.

Naxçıvandan olan şəhid atası Səməd Vəliyev – hansı ki, hələ də oğlunun yolunu gözləyir, məzarı belə yoxdur – Bakılı şəhid atası Bəylər Əkbərov və Zaqataladan şəhid anaları Balakənə gələrək şəhid valideynləri ilə görüşdülər. Onlar öncə Şəhidlər Xiyabanını ziyarət edərək ruhlara fatihə bağışladılar, məzarlar başında dərdlərini bölüşdülər. Ardınca Hənifə kəndində şəhidimiz Cavid Yüzbaşıyevin, Qazma kəndində isə I Qarabağ müharibəsi şəhidi Arzu Süleymanovun məzarlarını ziyarət etdilər, valideynləri və yaxınları ilə görüşdülər.

Bu görüş bir daha göstərdi ki, şəhidlərimizin ruhu bizi birləşdirir, onların valideynləri isə bu birliyin canlı simvoludur. Onların hər addımı, hər sözü, hər göz yaşı xalqımızın yaddaşında müqəddəs bir iz qoyur. Bu izlər gələcək nəsillərə vətən sevgisini, milli birliyi və şəhidlərə ehtiramı ötürəcək.

**Yeni Balakən**







# Balakəndə velosiped idman növü üzrə turnir keçirilib

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Velosiped İdmanı Federasiyası, AHİİTA, Balakən Rayon İcra Hakimiyyəti və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin dəstəyi ilə təşkil olunan turnirdə Balakən, Zaqatala və Qax rayonlarından olan məktəblilər iştirak ediblər.

Tədbirin açılış mərasimində Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev qonaqları və idmançıları salamlayaraq gənclər arasında sağlam həyat tərzinin təbliği məqsədilə velosiped idman növünün əhəmiyyətini qeyd edib, idmançılara uğurlar arzulayıb.

Digər çıxış edənlər Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin rəisi Ramiz Mahmudov, AHİİTA-nın direktor müavini Fikrət Hacıyev, Toba şirkətinin əməkdaşı Həsən Seyfullayev iştirakçılara uğurlar arzulayıb, bu cür yarışların idmana marağın artırılmasında mühüm rol oynadığını qeyd ediblər.

Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışda 3.5 km-lik məsafədə idmançılar müxtəlif yaş kateqoriyaları üzrə qalib olmaq uğrunda mübarizə aparıblar.

Yarışın yekununda qalib və mükafatçılar diplom və medallarla təltif olunublar. Eyni zamanda hər kateqoriya üzrə birinci yeri tutan idmançılara qiymətli hədiyyə – velosiped təqdim edilib.

Qeyd edək ki, bu cür idman tədbirlərinin keçirilməsi region gəncləri arasında sağlam həyat tərzinin təşviqinə, velosiped idman növünün inkişafına və gənclərin idmana marağının artırılmasına mühüm töhfə verir.

**Yeni Balakən**

# Balakən rayonunda muzdla çalışan işçilərin sayı və orta aylıq nominal əməkhaqqı

2026-cı il yanvarın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 9027 nəfər olmuş, onlardan 5016 nəfəri dövlət sektorunda, 4011 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

*Muzdla işləyənlərin 13,6 faizi məhsul istehsalı sahələrində, o cümlədən 8,1 faizi emal sənayesində, 2,4 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində, 1,3 faizi tikintidə, 0,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində məşğul olmuşlar.*

*Xidmət sahəsində işləyənlərin 32,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 30,7 faizi təhsil, 9,9 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,0 faizi istirahət, əyləncə və incəsənət, 1,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,5 faizi informasiya və rabitə, 0,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 0,5 faizi maliyyə və sığorta fəaliyyəti, 0,3 faizi peşə, elmi və texniki fəaliyyət, 0,2 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 0,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində məşğul olmuşlar.*

*2025-ci ilin ilkin məlumatlarına əsasən rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,3 faiz artaraq 622,4 manat təşkil etmişdir. Dövlət sektorunda əməkhaqqı 709,5 manat, qeyri-dövlət sektorunda isə 498,4 manat olmuşdur.*




**Balakən Rayon Statistika İdarəsinin rəisi Əsəbəli Alqayev**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100